

# Azərbaycanın yeni Olìmpìya rekordu

## Respublikamız medal sayına görə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq, islam, türk və Qafqaz ölkələri arasında lider oldu

E.ə.776-cı ildə qədim Yunanıstanın Olimpiya şəhərində başlayan idman yarışları indi - 2792 il sonra bütün dünyanın diqqətini özünə cəlb edən əsas qlobal tədbirdir. Həm də idmandan daha çox ictimai-siyasi və informativ-təbliğat məzmunludur.

120 il öncə yeni mərhələdə davam etdirilən bu yarışların sayca 31-cisi artıq Braziliyada tarixə qovuşdu. Ölkəmizin də ən vacib ictimai hadisəsinə çevrilən bu Olimpiya oyunları Azərbaycanın idman həyatında mühüm rekordlarla əlamətdar oldu.

### İlham Əliyevin etimadı - olimpiyaçılarımızın məsuliyyəti

Azərbaycan idmançılarının Olimpiyaya yola salınma mərasimində ölkə rəhbəri, MOK prezidenti İlham Əliyev atletlərimiz qarşısında konkret vəzifəni müəyyənləşdirmişdi: "Əminəm ki, olimpiyaçılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər və vətənə böyük qələbə ilə qayıdacaqlar".

Bu əminlik həm də böyük etimad idi və yüksək məsuliyyət hissi yaratmalı idi. Görünən odur ki, etimad doğrulub və yığmamız məsuliyyət hissi ilə yarışıb.

Olimpiya oyunlarında heç bir yarış zəif keçmir və bütün atletlər ən güclülərdir. Çünki idmançıların hamısı seçilmişlərdir, öz növlərinin ən yaxşılarıdırlar. Bu baxımdan atletlərimizin hamısından qələbə, medal gözləmək də sadəlövhlük olardı. Çünki onların rəqibləri də böyük təcrübəyə və hazırlığa malik idilər, ən əsası isə qədim tarixə malik mükəmməl idman ənənələrinə sahib ölkələri təmsil edirdilər.

207 ölkənin və 11 mindən çox atletin iştirak etdiyi yarışlara 56 idmançımız qatılmışdı ki, onların da üçdə biri medal əldə etdi. Digər tərəfdən, bu Olimpiya oyunlarında yığmamızın idman performansı ən yüksək nəticələrin qeydə alınmasına səbəb oldu. Ümumilikdə, ötən 5 Olimpiya ilə müqayisəli təhlil apardıqda "Rio-2016"-da daha mühüm uğurların əldə edildiyini deməklə olar.

<u>Bu nailiyyətləri belə qruplaşdırmaq mümkündür:</u>

- *Bu Olimpiadada Azərbaycan daha çox idmançı ilə (56 atlet) təmsil olunaraq, daha çox idman növündə (17) yarışlara qatılmışdı;*
- *Ölkəmiz Olimpiya oyunları tarixində ən çox mükafatı - 18 medalı "Rio-2016"-da qazandı;*
- *Azərbaycan medal sayına görə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutdu;*
- *Bu nəticəyə görə respublikamız islam, türk və Qafqaz ölkələri arasında lider oldu;*
- *İdmançı sayının qazanılan medallara nisbətinə görə Azərbaycan Olimpiadanın lider dövləti oldu;*
- *18 medalla Azərbaycan həm də MDB-nin ikincisi, Avropanın isə 7-ci ölkəsi oldu;*
- *Ən çox gümüş və ən çox bürünc "Rio-2016"-da qazanıldı;*
- *Azərbaycan daha çox idman növündə medal qazandı;*
- *Taekvondo idman növündə ilk dəfə olaraq mükafatlar əldə edildi ki, üç medaldan birinin əyarı qızıldır;*
- *Boksda ilk dəfə olaraq atletimiz finala yüksəldi;*
- *İdmançılarımız avarçəkmədə ilk dəfə medal qazandılar, özü də 2 dəfə;*
- *Sərbəst güləş yığmamız komanda hesabında ən çox medala yiyələnən ölkə oldu;*
- *Cüdoda ilk dəfə olaraq iki gümüş medal qazanıldı;*
- *Artıq dünya idman ictimaiyyəti tərəfindən "Rio-2016"-nın ən kuryoz və ən diqqətçəkən hadisəsi kimi qəbul edilən güləş üzrə Monqolustan-Özbəkistan təmsilçilərinin yarışında ədalətli qərarı verən və bu qərarı Beynəlxalq Güləş Federasiyasının münsif heyəti tərəfindən birmənalı qəbul edilən hakim həmvətənimiz Hicran Şərifov idi...*

### 60-a yaxın qələbə

"Rio-2016"-da Azərbaycan bayrağının 18 dəfə dalğalandırılması ölkəmizin təbliğatı baxımından böyük əhəmiyyətə malikdir. Dünyanın dörd bir tərəfindən milyardan artıq tamaşaçının izlədiyi yarışlarda atletlərimizin təsnifat mərhələsindən final görüşlərinə qədər qazandıqları 60-a yaxın qələbə yalnız yüksək idman potensialının göstəricisi deyildi. Bu həm də güclü Azərbaycanın daha bir təsdiqi idi!

Əlbəttə, Olimpiya oyunlarında biz izləyiçiləri narazı salan, narahat edən məqamlar da oldu. Amma bu barədə rəyi həvəskarlar yox, peşəkarlar verməlidir. Şübhəsiz ki, yarışların nəticələrini təhlil edəcək, atletlərimizin idman performansının monitorinqini araşdıracaq mütəxəssislər, idman və Olimpiya strukturları bu məqamları ciddi və obyektiv şəkildə öyrənəcək, aydınlaşdıracaqlar. Taekvondoda və cüdoda hər birimizi sevindirən ciddi dönüş nə qədər qürur doğurucu və təqdirəlayiqdirsə, mükəmməl tarixi güləş ənənələrinə malik ölkəmizin pəhləvanlarının vətənə qızıl medalsız dönmələri o qədər təəssüfedicidir...

Digər toxunulası zəruri məqam "Rio-2016"-nın təşkilati hazırlığının çoxsaylı problemləri idi. Bu mövzuya diqqət ayıran xarici KİV tənqidi materiallarında müsbət müqayisə kimi bu sahədə təcrübəsi olmayan Azərbaycanın I Avropa Oyunlarının yüksək səviyyədə təşkilini nümunə kimi göstərir, Bakının Olimpiya hazırlığında mükəmməl model yaratdığını qeyd edirdilər. İki ay öncə paytaxtımızda təşkil olunan "Formula-1" yarışlarının da mütəmadi xatırlanması Azərbaycanın artıq əsl idman ölkəsi kimi imicinin möhkəmlənməsinin daha bir sübutu oldu.

Bu beynəlxalq təsdiq, qlobal idman ictimaiyyətinin birmənalı rəyi ölkəmizin qarşıdakı dövrdə daha böyük idman nailiyyətləri əldə edəcəyinə əminlik yaradır. Medal sayına görə dünyanın ən güclü islam ölkəsi olan Azərbaycan gələn il daha bir möhtəşəm idman tədbirinə - IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edəcək.

Bu yarışların ən əlamətdar cəhəti isə yalnız Bakının növbəti ən yüksək səviyyəli təşkilatçılıq bacarığı olmayacaq. Avropa oyunlarında komanda hesabında ikinci olan Azərbaycan idmançılarından gələn il daha yüksək uğurlar gözləyirik.

Və buna əminik!..

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***